

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 150 (21.051)

9 avqust 2014-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Cari ilin ötən dövründə muxtar respublikada 1618 nəfər işlə təmin olunub

### İşaxtaran vətəndaşların işlə təmin edilməsi üçün avqustun 19-da növbəti əmək yarmarkalarına start veriləcək

***Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi məşğulluq strategiyası bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ardıcıllıqla davam etdirilir. Bunun nəticəsidir ki, "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının (2006-2015-ci illər)" uğurlu icrası işsizlik səviyyəsinin nəzərəçarpacaq dərəcədə azalması ilə nəticələnib. Muxtar respublikamızda da həyata keçirilən məşğulluq tədbirləri əhalinin sosial müdafiəsinin gücləndirilməsində, insanların daimi işlə təmin olunmasında mühüm rol oynayır.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" da bu məqsədə xidmət edən mühüm dövlət sənədidir. Proqramda nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi istiqamətində görülən işlər muxtar respublika sakinləri tərəfindən insan amilinə, onun layiq olduğu səviyyədə yaşamasına qayğı kimi dəyərləndirilir.

Əhalinin məşğulluğunun təmin olunması məqsədilə işaxtaran vətəndaşların münasib işlə təmin edilməsi, onların haqqödənilən ictimai işlərə cəlb olunması, habelə peşə hazırlığı sahəsində muxtar respublikada həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər bir daha onu göstərir ki, blokada şəraitində yaşaya-yaşaya hər hansı problemin həllinə nail olmaq mümkündür. İndi regionda əhalinin məşğulluğunun təmin edilməsində ən çevik yol olan əmək yarmarkalarından geniş istifadə edilir. Rayonlarda fəaliyyət göstərən məşğulluq orqanları bu işdə mühüm rol oynayırlar. İşəgötürənlərdən boş iş yerləri haqqında məlumatlar toplanılır, bu məlumatlar əmək yarmarkalarında işaxtaranlara təqdim edilir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətindən aldığımız məlumata görə, muxtar respublikada cari ilin ötən dövrü ərzində şəhər və rayonlarımızın hər birində 2 dəfə əmək yarmarkaları keçirilib. Yarmarkalarda 519 nəfər, ümumilikdə, ötən 7 ay ərzində 1618 nəfər işlə təmin olunub, 198 nəfər peşə hazırlığına, 169 nəfər ictimai işlərə, 78 nəfər kvota yerinə göndərilib.

Məlumat üçün onu da bildirək ki, növbəti əmək yarmarkalarına avqustun 19-da start veriləcək. Həmin gün tədbir Sədərək rayonunun Heydərabad qəsəbəsində təşkil olunacaq. Avqust ayının 20-də Kəngərli Rayon Məşğulluq Mərkəzində bu bölgənin işaxtaran sakinlərinə boş iş yerləri təqdim ediləcək. Avqust ayının 21-də keçiriləcək əmək yarmarkası Şahbuz şəhərindəki "Araz" kinoteatrının binasında olacaq. Culfa rayonunun işaxtaran sakinləri bu dövlət qayğısından avqust ayının 22-də istifadə edəcəklər. Avqust ayının 26-da ordubadlılara, 27-də babəklilərə, 28-də şərurlulara boş iş yerləri təqdim olunacaq.

Naxçıvan şəhərində əmək yarmarkası avqust ayının 29-da "Gənclik" Mərkəzində keçiriləcək.

## Naxçıvan Şəhər Prokurorluğu hüquqi maarifləndirmə tədbiri keçirib



Dünən Naxçıvan Şəhər Prokurorluğunun təşkilatçılığı ilə Naxçıvan şəhərinin Əliabad qəsəbəsində valideynlərin hüquq və vəzifələrinə, həmçinin şəhərsalma məqsədilə abadlaşdırma məsələlərinə həsr olunmuş tədbir keçirilmişdir.

Tədbiri Naxçıvan Şəhər İcra Hakimiyyətinin şöbə müdiri İsmayıl Gülməmmədov açmış, tədbirin mahiyyəti barədə iştirakçılara məlumat vermişdir.

Tədbirdə Naxçıvan şəhər prokurorunun müavini, birinci dərəcəli hüquqşünas Qalib İsmayılov "Valideynlərin hüquq və vəzifələri, valideyn hüququ" mövzusunda məruzə ilə çıxış etmişdir. Qeyd olunmuşdur ki, valideynlərin hüquq və vəzifələri Azərbaycan Respublikası Ailə Məcəlləsinin 12-ci fəslində təsbit olunmuşdur. Valideynlər öz uşaqları barəsində bərabər hüquq və vəzifələrə malikdirlər. Uşaqlar yetkinlik yaşına çatdıqda, yetkinlik yaşına çatmayan şəxslər nikah bağladıqda, eləcə də yetkinlik yaşına çatmayan uşaqlar qanunvericiliklə müəyyən edilmiş hallarda tam fəaliyyət qabiliyyəti əldə etdikdə valideynlərin bu fəsildə göstərilən hüquq və vəzifələrinə xitam verilir.

Valideynlər uşaqlarını tərbiyə etmək hüququna malikdirlər və uşaqlarını tərbiyə etməyə borcludurlar. Onlar uşaqlarının tərbiyəsinə, sağlamlığına və onların psixi, fiziki, mənəvi inkişafına görə məsuliyyət daşıyırlar. Digər şəxslərlə müqayisədə öz uşaqlarının tərbiyəsində üstün hüquqlara malikdirlər. Uşaqların ümumi orta təhsil almasına qədər onların maraqlarını nəzərə almaqla, təhsil müəssisəsini və təhsil formasını seçmək hüququna malikdirlər. Dövlət valideynlərin bu hüquq və vəzifələrinə qanunda nəzərdə tutulmuş qaydada yalnız uşağın mənafeyi tələb etdiyi hallarda müdaxilə edə bilər.

Vurğulanmışdır ki, valideynlər uşaqlarının hüquq və mənafelərini müdafiə etməlidirlər. Valideynlərin və uşaqların maraqları arasında ziddiyyət yarandığı müəyyən olunarsa, müvafiq icra hakimiyyəti orqanı uşaqların hüquq və mənafeyini müdafiə üçün nümayəndə təyin etməlidir.

Sonra Naxçıvan şəhər prokurorunun köməkçisi, ikinci dərəcəli hüquqşünas Əqil Əliyev çıxış edərək bildirmişdir ki, abadlaşdırma tədbirləri müəyyən ərazidə sağlam yaşayış, iş və istirahət şəraitinin yaradılması, həmin ərazidə yaşayan və işləyən insanların təhlükəsizliyinin təmin edilməsi, müvafiq ərazinin və həmin ərazidə yerləşən tikinti obyektlərinin və onların ayrı-ayrı hissələrinin, fasadlarının zahiri görkəminin yaxşılaşdırılması, habelə bununla bağlı mövcud şəraitin daha da yaxşılaşdırılması məqsədi daşıyan tədbirlər məcmusudur. Abadlaşdırma tədbirləri əvvəlcədən mülkiyyətçilər və digər maraqlı şəxslərlə müzakirə edilməlidir. Müvafiq icra hakimiyyəti orqanı və ya bələdiyyələr abadlaşdırmada könüllü olaraq iştirak edən maraqlı şəxslərə lazımi məsləhətlər verir.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

***Avqustun 8-də Ağbulaq İstirahət Mərkəzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibliyinin, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə gənclərin yay universiteti fəaliyyətə başladı.***

## Ağbulaq İstirahət Mərkəzində gənclərin yay universiteti fəaliyyətə başladı



Yay universitetinin açılış mərasimində çıxış edən Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublikası Təşkilatının icra katibi Anar İbrahimov iştirakçıları salamlayaraq onlara tədbirin mahiyyəti barədə ətraflı məlumat verdi.

Bildirildi ki, yeddi gün istirahət mərkəzində olacaq gənclər "Heydər Əliyev və Azərbaycan gəncliyi", "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir", "Milli dəyərlərimizin gənclər tərəfindən qorunub saxlanması" mövzularında seminarlarda və müxtəlif idman yarışlarında iştirak edəcək, Şahbuz rayonunun ərazisindəki tarixi yerlərdə olacaqlar. Yay universitetinin yaradılmasında məqsəd gənclərin vətənpərvərlik hisslərinin artırılması və asudə vaxtlarının səmərəli təşkilidir.

Tədbirdə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin sədri Azad Cabbarov çıxış edərək istirahət mərkəzində universitet iştirakçılarının vaxtlarının səmərəli təşkil olunması üçün hər cür şəraitin yaradıldığını bildirdi, gənclərə uğurlar arzuladı.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev Naxçıvan Muxtar Respublikasında gənclərin hərtərəfli dövlət qayğısı ilə əhatə olunduğunu bildirdi.

Vurğulandı ki, gənc fəallar burada müxtəlif mövzularda diskussiyalarda, intellektual oyunlarda iştirak edəcək, sosial şəbəkələrdən istifadə qaydaları və bu sahədə fəallığın təmin edilməsi mövzularında müzakirələr aparacaqlar.

Qeyd edək ki, Ağbulaq İstirahət Mərkəzində təşkil olunan gənclərin yay universitetində Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublikası Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin fəalları və muxtar respublikanın ictimai-siyasi həyatında fəallıq göstərən gənclər iştirak edirlər.

**Xəbərlər şöbəsi**

## Cari ilin 7 ayı ərzində Şərur rayonunda 384 vergi ödəyicisi qeydiyyata alınıb

***"Şərur rayonunda vergi ödəyicilərinin məlumatlandırılması və vergilərin vaxtında ödənilməsi məqsədilə ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Cari ilin 7 ayı ərzində sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan fiziki şəxs kimi həyata keçirən 384 vergi ödəyicisi qeydiyyata alınıb". Bunu Şərur Rayon Vergilər Şöbəsinin rəis əvəzi Əbülfəz Baxşıyev qəzetimizə müsahibəsində deyib.***

Bildirib ki, ayrı-ayrı sahibkarların müraciətləri qanunamüvafiq cavablandırılıb, bəyannamələrin düzgün tərtib edilməsinə köməklik edilib, elektron bəyannamə xidməti göstərilib. Həmçinin vergi ödəyicilərinin vergi orqanlarına gəlmədən internet vasitəsilə bəyannamələrinin təqdim olunması, özlərinin şəxsi vərəqələrinə nəzarət etmək, elektron əməliyyatlar aparmaq imkanının yaradılması məqsədilə bu il avqustun 1-dək sahibkarlıq fəaliyyəti ilə məşğul olan 1467 vergi ödəyicisi ilə "Vergi hesabatlarının elektron sənəd formasında göndərilməsi haqqında" müqavilə bağlanaraq onlara parol-şifrələr verilib. Parol-şifrə verilmiş vergi ödəyicilərinin hamısının bəyannamələri elektron poçt vasitəsilə rayon Vergilər Şöbəsinə təqdim edilib. Cari ilin 7 ayında 485, ümumilikdə isə 1876 hüquqi və fiziki şəxsə bank hesabı açılıb ki, bu da ödəmələrin köçürmə yolu ilə aparılmasına əlverişli şərait yaradıb. Bu sahə diqqət mərkəzində saxlanılmaqla nağdsız hesablaşmaların tətbiqi sahəsi genişləndirilir.

Vergi ödəyicilərinin məlumatlandırılması ilə yanaşı, nəzarət işinin qanunvericilikdə nəzərdə tutulmuş qaydada aparılması, proqnoz tapşırıqların bütün növ tədiyyələr üzrə yerinə yetirilməsi, qalıqlara yol verilməməsi, hesablanmış vəsaitin büdcəyə ödənilməsi, vergi orqanlarında qeydiyyatda durmadan fəaliyyət göstərilməsi, işəgötürən və işçilər arasında əmək müqavilələrinin bağlanmaması və vergidənyayınma hallarının qarşısının alınması məsələləri də diqqət mərkəzində saxlanılıb. Belə ki, 1 avqust 2014-cü il tarixədək rayon ərazisində fiziki və hüquqi şəxslərin fəaliyyət göstərdiyi 485 obyektdə nəzarət-kassa aparatı quraşdırılıb. 1876 hüquqi və fiziki şəxsə ciddi hesabat blankları tətbiq edilib. Cari ilin 7 ayında şöbəyə təqdim olunmuş bəyannamələrin kameral yoxlanılmasına diqqət daha da artırılıb. Eyni zamanda xüsusi razılıq (lisenziya) olmadan 3, xarici valyutanı ödəniş vasitəsi kimi qəbul edən 2, vergi orqanlarında uçotda durmayan 2, fərqlənmə nişanı olmadan sərnişindaşıma ilə məşğul olan 1, əmək müqaviləsi bağlamadan fiziki şəxsləri hər hansı işlərin yerinə yetirilməsinə cəlb edən, əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət etməyən 4 vergi ödəyicisinə, ümumilikdə, 1720 manat maliyyə sanksiyası və 130 manat inzibati cərimə tətbiq edilib, həmin vəsaitin tamamilə büdcəyə ödənilməsi təmin olunub. Həmçinin işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin yerinə yetirilməsinə cəlb edilməsi qaydalarına riayət olunması ilə əlaqədar reydlər davam etdirilib, ümumilikdə, 1 avqust 2014-cü il tarixədək 36 nəfərlə əmək müqaviləsinin bağlanmasına köməklik göstərilib. Cari ilin 7 ayında bağlanmış əmək müqavilələrində işçilərə ödənilən aylıq əməkhaqqının məbləği 180 manatdan az olmayıb.

Qeyd edək ki, görülən tədbirlər nəticəsində 2014-cü ilin 7 ayı ərzində bank orqanları tərəfindən rayonun ticarət, iaşə, xidmət və dövlət rüsumu alan idarə, müəssisə və təşkilatlarında qoyulmuş 66 ədəd POS-terminalın vergi orqanında qeydiyyatdan keçirilməsi təmin olunub. Bu işlər sürətlə davam etdirilir.

Təbii ki, vergi ödəyiciləri arasında aparılan maarifləndirici söhbətlər və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş vergilərin və digər icbari ödənişlərin düzgün hesablanması, büdcəyə vaxtında və tam köçürülməsi ilə əlaqədar həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər öz bəhrəsini verib. Bunu Şərur Rayon Vergilər Şöbəsinin rəis əvəzi Əbülfəz Baxşıyevin 7 ayın yekunları ilə bağlı söylədikləri də təsdiq edir. Belə ki, bu dövrdə vergilər və digər icbari ödənişlər üzrə proqnoz tapşırıqda nəzərdə tutulmuş 1 milyon 624 min manata qarşı 1 milyon 738,3 min manat vəsait toplanılıb büdcəyə ödənilib ki, bu da 7 aylıq tapşırığın 107 faiz yerinə yetirilməsi deməkdir.

**Cəfər ƏLİYEV**

# Şahbuz rayonu inkişafının yeni mərhələsindədir

***Ölkəmizin müasir sosial-iqtisadi inkişaf mənzərəsində regionların özünəməxsus yeri vardır. Bu da təbiidir. Çünki uzun bir müddətdən sonra yaradılan müasir infrastruktur şəraiti, əhalinin məşğulluğunun təmini sahəsində görülən işlər hər bir regionun sahib olduğu təbii və əmək resurslarının iqtisadi dövriyyəyə cəlb olunmasına güclü təsir göstərmişdir. Həyata keçirilən regional inkişaf proqramları öz müsbət nəticəsini verməyə başlamışdır. Artıq ölkəmizin iri şəhərləri ilə onun regionları arasında əhalinin həyat səviyyəsi fərqləri minimuma enmiş, kəndlərimiz sürətlə müasirləşdirilmişdir. Bütün bunları muxtar respublikamızın şəhər və kəndlərinin simasında da aydın görmək mümkündür. Şahbuz rayonunun müasir sosial-iqtisadi mənzərəsi Naxçıvan Muxtar Respublikasını bürümüş intibah ab-havası fonunda özünəməxsus rəngləri ilə seçilməkdədir.***



Son illər Naxçıvan Muxtar Respublikasının hər yerində olduğu kimi, Şahbuz rayonunda da geniş tikinti-quruculuq və abadlıq tədbirləri həyata keçirilməkdədir. Şahbuz şəhəri ərazisində fəaliyyət göstərən ticarət və məişət obyektləri, bir sıra inzibati binalar yeni üslubda təmir edilmiş, müasir şəhərsalma tələblərinə uyğunlaşdırılmışdır. Buna rayonun hamar örtüklü yollarına ilk qədəm basdıqda şahid olmaq mümkündür. Rahat yolların kənarındakı gözoxşayan səkilər, yaşıllıq zolaqları şəhərə xüsusi yaraşıq verir.

Şahbuz Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, 2014-cü ilin ilk 6 ayı ərzində rayonun sosial-iqtisadi inkişafı istiqamətində mühüm işlər görülmüş, idarə, müəssisə və təşkilatların qüvvəsi qarşıya qoyulmuş bu vəzifələrin həyata keçirilməsinə istiqamətləndirilmişdir. Naxçıvan Muxtar Respublikasında elan olunmuş "Muxtariyyət ili"ndə vüsət almış geniş abadlıq-quruculuq tədbirlərindən Şahbuza da xeyli pay düşmüşdür. Şahbuz şəhərinin Heydər Əliyev prospektində və Səməd Vurğun küçəsində yeni səkilərin salınması, işıqlandırılma sisteminin yenidən qurulması davam etdirilmiş, gülkarlıqların salınmasına və bəzək ağaclarının əkilməsinə diqqət artırılmışdır. Bu il rayon mərkəzində 220 yerlik 3 mərtəbədən ibarət uşaq bağçasının, 216 şagird yerlik məktəb binasının, Şahbuz şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəlik üçün 2 mərtəbəli inzibati binanın tikintisi davam etdirilməkdədir. Eləcə də rayonun Gömür və Nursu kəndlərində kənd və xidmət mərkəzlərinin, Nursu kəndində 234 şagird yerlik məktəb binasının, Xalq şairi Məmməd Arazın ev-muzeyinin tikintisi, Gömür kəndində məktəb binasının əsaslı təmiri aparılır. Şahbuz şəhərində su, kanalizasiya sistemlərinin müasir standartlar səviyyəsində qurulması işləri davam etdirilir.

Şahbuz rayonu dağlıq ərazidə yerləşir. Ona görə də rayon iqtisadiyyatının əsasını təşkil edən və əhalinin əsas məşğulluq sahəsi olan aqrar sahənin inkişafı daim diqqətdə saxlanılır. Rayon sakinləri, əsasən,



heyvandarlıq, arıçılıq, bağçılıq, habelə taxılçılıq və tərəvəzçiliklə də məşğul olurlar. Şahbuzun yerli məhsulları öz keyfiyyəti ilə seçildiyindən onların tanıdılmasına xüsusi bir ehtiyac da yoxdur. Bu məqsədlə əhalinin şəxsi mülkiyyətində olan torpaqlardan səmərəli istifadə edilməsinə çalışılır. Muxtar respublikamızda aqrar sahənin inkişafına göstərilən dövlət qayğısı sayəsində Şahbuzda da bu sahəyə maraq xeyli artmış, ötən il bu ilin məhsulu üçün 1129 hektar sahədə payızlıq buğda əkini keçirilmiş, cari ilin yazında 201 hektar sahədə yazlıq arpa əkilmiş, ümumilikdə isə 1330 hektar sahədə taxıl əkini aparılmışdır. Sahələrdən bol məhsul tədarük edilmişdir.

Rayonda tərəvəzçiliyə də ciddi fikir verilir. "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"ndan irəli gələn vəzifələr Şahbuz rayonunda da daim diqqət mərkəzində saxlanılmaqdadır. Cari ildə Şahbuzda 420 hektar sahədə kartof, 279 hektar sahədə tərəvəz, 239 hektar sahədə dənli-paxlalı, 6 hektar sahədə bostan bitkilərinin əkini aparılmışdır. Bu il yaşıllaşdırma tədbirləri də davam etdirilmiş, rayonda keçirilən iməciliklər zamanı yeni yaşıllıq zolaqlarının salınması üçün sahələr hazırlanmış, 9,4 hektar sahədə yeni bağlar salınmış, 1,2 hektar sahədə bərpa işləri aparılmış, 7847 ədəd meyvə ağacı, 1117 ədəd həmişəyaşıl ağac əkilmişdir. On iki min ədəddən artıq fidanların əkildiyi sahələrin suvarılması üçün lazımi şərait yaradılmışdır.

Şahbuz rayonunda aqrar bölmənin maldarlıq və heyvandarlıq sahəsi çox əlverişlidir. Bu məqsədlə sahə daim diqqət mərkəzində saxlanılır, baytarlıq məntəqələrinin müasir tələblərə uyğun fəaliyyət göstərməsi təmin edilir. İstehsal olunmuş kənd təsərrüfatı məhsullarının laboratoriya müayinəsindən keçirilməsi, onların Naxçıvan şəhərində və rayon mərkəzində keçirilən yarmarkalarda satışının təşkil olunması üçün kəndli fermerlərə lazımi şərait yaradılmışdır.

Aqrar sahənin inkişafına göstərilən belə dövlət qayğısı maldarlığın və heyvandarlığın inkişafına öz müsbət təsirini göstərmişdir. 2014-cü ilin birinci yarısında rayon əhalisinin fərdi təsərrüfatlarında 23 mindən artıq iribuynuzlu, 121 min başdan artıq xırdabuynuzlu heyvan olmuş, 96 mindən artıq quş bəslənilmişdir. Şahbuzun balı təkcə muxtar respublikamızda deyil, ölkəmizdə və ondan kənarda da yaxşı tanınır. Bu il rayonda 19 min 650 arı ailəsi olmuşdur ki, bu da ötən ilin ilk 6 ayı ilə müqayisədə 1000 arı ailəsinin artması deməkdir. Cari ilin ötən dövründə 1127 ton ət, 5 min 795 ton süd, 3 milyon 24 min ədəd yumurta istehsal olunmuşdur.

Şahbuz Azərbaycanın yaxın gələcəkdə mühüm turizm mərkəzi ola biləcək təbii ehtiyatlara malikdir. Ölkəmizdə və onun hüdudlarından kənarda yaxşı tanınan "Batabat", "Ağbulaq" kimi istirahət guşələri ilə bərabər, rayonun digər ərazilərində də cazibədar turizm-rekreasiya ehtiyatları, gözoxşayan mənzərələr vardır. Rayon mərkəzi Şahbuz şəhərində müasir memarlıq üslubunda tikilən, yaxud yenidən qurulan inzibati və yaşayış binaları, sosial obyektlər, küçə və meydanlar, salınan geniş park və xiyabanlar, yol kənarlarında istifadəyə verilən bulaq abidələri, həyata keçirilmiş digər abadlıq tədbirləri Şahbuz rayonunun gözəlliklərinə yeni çalarlar əlavə edir.



***İlin bu gözəl çağında Şahbuza yolu düşənlər dediklərimizə özləri şahid olarlar. Şüşə kimi hamar Naxçıvan-Şahbuz-Batabat avtomobil yolu ilə irəliləyib Şahbuza daxil olanda insan əli ilə yaradılan möcüzələrin təəssüratı altına düşürsən. Çünki dəyişən çox şeylər vardır. Bütün bunlar – tikilən, qurulan nə varsa, bu yerin insanları üçündür. Şahbuzluların müasir həyat tərzinə mühüm təsir edən quruculuq tədbirləri, yüksələn həyat səviyyəsi rayon əhalisini işdən daha möhkəm yapışmağa sövq edən, torpaq və su resurslarından, əlverişli keçən iqlim şəraitindən daha səmərəli istifadəyə cəlb edən mühüm bir stimuldur.***

**Əli CABBAROV**

# "Qızıl su" əmtəə nişanı ilə satışa çıxarılan məhsullara tələbat artır

***Muxtar respublikamızın təbii sərvətlərindən səmərəli istifadə olunmaqla yeni emal və sənaye müəssisələri həyata vəsiqə alır, daxili bazarın tələbatına uyğun yüksəkkeyfiyyətli yerli məhsullar istehsal edilir, əhalinin məşğulluğu təmin olunur, maddi rifahı daha da yaxşılaşır. Belə istehsal müəssisələrindən biri də Babək rayonunun Sirab kəndində fəaliyyət göstərən "Savalan-S" Kiçik Müəssisəsidir.***

1997-ci ildən fəaliyyətə başlayan müəssisədə Rusiyadan alınmış, gündəlik istehsal gücü 2000 şərti butulka olan yarımavtomatlaşdırılmış istehsal xətti quraşdırılmış, Sirab mənşəli mineral su istehsalına başlanmışdır. Mineral su müəssisəyə "Kalbayağıl" adlanan yerdəki bulaqlardan yeraltı paslanmayan borularla çəkilmişdir. Su mənbəyinin təhlükəsizliyini təmin etmək məqsədilə bulağın ətrafı hasara alınmış, burada bina tikilmişdir. Məlumat üçün qeyd edək ki, mineral su yatağı 3 yeraltı mineral su hövzəsindən ibarətdir və Naxçıvan şəhərindən 14,6 kilometr şimal-şərqdə, Babək rayonunun Sirab kəndi ərazisində, dağ ətəyində yerləşir. Mineral su əvəzsiz süfrə suyu olmaqla bərabər, yüksək müalicəvi əhəmiyyətə malikdir. Belə ki, ağciyər, öd kisəsi, həzm yolları və böyrək xəstəlikləri, mübadilə pozğunluqları zamanı istifadə edilir. Həmçinin qan dövranını, tənəffüsü, regenerasiyanı, ürək fəaliyyətini yaxşılaşdırır, mədə-bağırsaq xəstəlikləri zamanı şirəqovucu kimi əhəmiyyətlidir, dilin dad reseptorlarının həssaslığını yüksəldir, aerozol şəklində tənəffüs yolları xəstəliklərinə və allergiyaya müsbət təsir edir.



Uyğunlaşdırılmış binada fəaliyyət göstərən müəssisədə istehsal olunan məhsullara artan tələbatın ödənilməsi, yeni istehsal sahələrinin yaradılması və bunun nəticəsi olaraq, əlavə işçi qüvvəsinin cəlb edilməsi imkanı məhdud olduğundan yeni binanın tikilməsi, daha müasir texnoloji avadanlıqların alınıb gətirilməsi zərurəti yaranmışdır. Digər sahibkarlıq subyektləri kimi, bu müəssisə də dövlət qayğısından bəhrələnmişdir. Müəssisəyə Naxçıvan Muxtar Respublikası Sahibkarlığa Kömək Fondu tərəfindən 2012-ci ilin mart ayından başlayaraq mərhələlərlə, ümumilikdə, 130 min manat dövlət maliyyə dəstəyi göstərilmişdir. Babək rayonunun Sirab kəndində istehsal müəssisəsi üçün daha əlverişli yerdə torpaq sahəsi ayrılmış, burada müasir layihə əsasında istehsal sahəsi, xammal və hazır məhsulların saxlanılması üçün anbar, inzibati bina və digər yardımçı otaqlar tikilib istifadəyə verilmişdir. 2013-cü ilin aprel ayında istifadəyə verilən müəssisədə istehsal gücü saatda 12 min ədəd şərti butulka olan daha müasir texnoloji avadanlıqlar quraşdırılmış, istehsal prosesi avtomatlaşdırılmışdır. İstehsal edilən məhsulun ayrı-ayrı ticarət obyektlərinə keyfiyyətlə çatdırılması məqsədilə xüsusi avtomaşın alınmışdır. Təbii ki, yeni istehsal sahələrinin yaradılması daxili bazarın müxtəlif çeşiddə yerli məhsullarla təmin edilməsi ilə yanaşı, əlavə iş yerlərinin açılmasına da əlverişli şərait yaradır. Hazırda müəssisədə "Qızıl su" əmtəə nişanı ilə müxtəlif çeşidlərdə limonad və mineral su istehsal olunur.

Texnoloji proseslərə və texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunan müəssisədə istehsal prosesi suyun və müxtəlif meyvə şirələrinin hazırlanması, qablaşdırılması mərhələlərindən keçməklə aparılır. Müəssisəyə gələn su əvvəlcə qum filtrindən keçirilib çənə yığılır və suyun səviyyəsi rəqəmli şüşə borularla müəyyənləşdirilir. Ümumi tutumu 25 ton olan çəndə su 2 gün saxlanılır. Sonra yenidən filtrdən keçirilərək istehsal sexinə verilir. Suyu boşaldıqdan sonra çən yuyulur, dezinfeksiya edilir. Mineral su soyuducu qurğularda 4-8 dərəcəyədək soyudularaq filtrdən və ultrabənövşəyi şüadan keçirilib ozonlaşdırıldıqdan sonra istehsal sahəsinə ötürülür. Limonad istehsalı sahəsində isə su ilə müxtəlif meyvə şirələri reseptə uyğun qarışdırılıb ayrı-ayrı çənlərdə müəyyən olunmuş müddətdə və temperaturda saxlanılaraq istehsal xəttinə ötürülür.

İstehsal prosesi tam avtomatlaşdırılmışdır. Müəssisədə müxtəlifhəcmli plastik butulkalarda olmaqla, 8 çeşiddə tərxun, armud, limon, üzüm, portağal şirələrindən hazırlanmış limonad və 2 çeşiddə mineral su istehsal edilir. 2011-ci ilin fevral ayında "Gəmiqaya Holdinq" Şirkətlər İttifaqının Plastmas Kapsul və Qapaq İstehsalı Müəssisəsinin fəaliyyətə başlaması bu müəssisənin də plastmas taralara olan tələbatının yerli istehsal hesabına ödənilməsinə əlverişli şərait yaratmışdır.

Müəssisədə məhsulun keyfiyyətinə laborator nəzarət təmin olunmuşdur ki, burada da suyun minerallıq dərəcəsi, qələviliyi, ümumi analizləri yoxlanılır, keyfiyyətə zəmanət verilir. Bir sözlə, müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla fəaliyyətə başlayan müəssisədə istehsal prosesi avtomatlaşdırılaraq standartlara uyğun, ekoloji cəhətdən təmiz, yüksəkkeyfiyyətli məhsul istehsalına nail olunmuşdur.

"Qızıl su" əmtəə nişanı ilə satışa çıxarılan məhsullar alıcılar tərəfindən rəğbətlə qarşılanır. Ayrı-ayrı ticarət şirkətlərindən alınan sifarişlər də dadı-tamı ilə seçilən bu yerli məhsula tələbatın çox olduğunu göstərir. Gələcəkdə müəssisədə istehsal edilən məhsulların ölkəmizin digər regionlarında da satışa çıxarılması nəzərdə tutulur.

**Kərəm HƏSƏNOV**

*Ötən əsrin 90-cı illərinin əvvəlində Naxçıvan Muxtar Respublikasının qarşısında çox mühüm vəzifələr dayanırdı. Ən başlıca vəzifələrdən biri dövlət quruculuğu prosesini uğurla həyata keçirmək idi. İqtisadi və sosial islahatlar, xüsusilə ictimai mülkiyyətə (əslində, dövlət mülkiyyətinə) əsaslanan sistemdən liberal iqtisadiyyata – bazar iqtisadiyyatına keçid vacib amillərdən biri kimi öz həllini tapmalıydı. Əlbəttə, bu məsələnin həlli o qədər də asan deyildi. Uzun müddət sovet iqtisadi-sosial sistemində yaşamış əhalinin birdən-birə bazar münasibətlərinə keçməsi müəyyən sosial, iqtisadi və psixoloji çətinliklər yaradırdı. Bütün bunlarla yanaşı, Naxçıvan Muxtar Respublikasının təcavüzkar Ermənistan tərəfindən blokadaya salınması burada yaşayan ailələrin vəziyyətini bir qədər də mürəkkəbləşdirirdi.*

# Ailələrin sosial rifahı davamlı olaraq yaxşılaşdırılır

## *Zaman-zaman verilən tapşırıqların və qarşıya qoyulan vəzifələrin adı dəyişsə də hədəf birdir: ailələrin rahat, layiqli yaşayışını təmin etmək və bütövlüyünü qorumaq!*



Muxtar respublikada yaşayan ailələri yaxınlaşan bəladan, sosial partlayışdan, məcburi köçkün ömrü yaşamaqdan qurtaracaq xilaskara ehtiyac var idi. Belə bir uzaqgörən, xalqın qeydinə qalan fenomeni – Heydər Əliyevi Tanrı bu ulu torpağa 1990-cı ilin yayında xilaskar göndərdi. Müstəqilliyin ilk illərində Azərbaycanın əsas ərazilərindən ayrı düşmüş Naxçıvan Muxtar Respublikasının sərhəd bölgələrində yaşayan ailələr Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalır, sosial, iqtisadi və kommunikasiya blokadası şəraitində çətin vəziyyətdə yaşayırdılar. Buna baxmayaraq, bu dövrdə ölkədə ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasında iqtisadi islahatlara başlanılmışdır. Culfa rayonunun Şurud və Gal kimi sərhəd kəndlərində eksperimental qaydada torpaq islahatlarına start verilmiş, torpaqlar pay norması əsasında həmin kəndlərdə yaşayan ailələrə paylanılmışdır.

Muxtar dövlətimizdə 1995-ci ildən başlanan intibah ailələri də öz ağuşuna almış, bugünkü ağ günə gətirib çıxarmışdır. 19 ilə yaxın bir zaman kəsiyi tarix üçün böyük olmasa da, ailə siyasətinin sistemli şəkildə həyata keçirilməsinə, ailələrin həyatında müsbət dəyişikliklərin həcminə, məzmun və əhəmiyyətliliyinə görə qərinələrə, əsrlərə bərabərdir. Buna stimul verən isə ölkənin, eləcə də muxtar respublikanın sosial-iqtisadi yüksəlişidir.

Naxçıvan Muxtar Respublikasının çağdaş dövründə görülən işlər, qazanılan uğurlar, ailələrin sosial vəziyyətlərinin yaxşılaşdırılmasına, yaşayış şəraitinin yüksəldilməsinə yönəldilən tədbirlər insanları razı salmış, onların fəal ömür yaşamalarına zəmin yaratmışdır. Muxtar respublika iqtisadiyyatında əldə olunmuş sabit artım tempi ailələrin sosial müdafiəsinin vacib tərəfi olan səmərəli məşğulluğun təşkili və yeni iş yerlərinin yaradılması üçün də əlverişli mühit formalaşdırmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 30 may 2007-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında Məşğulluq Strategiyası"nın həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-cu illər)" müvəffəqiyyətlə icra olunmuşdur.

Bundan əlavə, muxtar respublikada əhalinin səmərəli məşğulluğunun inkişafına yönəldilən tədbirlərin həyata keçirilməsi, işəxtaranların, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin edilməsinə köməklik göstərilməsi, əlillərin əmək bazarına inteqrasiyasının təmin edilməsi, onların məşğulluq səviyyəsinin artırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" təsdiq edilmişdir. Cari ilin ilk 6 ayı ərzində 1655 yeni iş yeri yaradılmışdır ki, bu da əhalinin məşğulluğunun təmin edilməsində yüksək göstəricidir. Təqdirəlayiq haldır ki, proqramın icrası ilə əlaqədar sağlamlıq imkanları məhdud şəxslər peşə kurslarına cəlb olunur, müvafiq peşə sahəsini öyrəndikdən sonra onların işlə təmin olunmasına xüsusi diqqət yetirilir. Sözsüz, belə bir köməklik həm ailələrin maddi gəlirlərinin yüksəlməsinə, həm də ailələrdə psixoloji ab-havanın yaxşılaşmasına xidmət edir.

Muxtar respublika ailələrinin həyatında baş verən ən əlamətdar hadisələrdən biri də uzun illər fasilədən sonra 2005-ci ildə Naxçıvan Muxtar Respublikasına təbii qaz kəmərinin çəkilişi oldu. Həmin ildən başlayaraq mənzillər qazlaşdırılmış, pulsuz olaraq mətbəx sobaları verilmiş, qaz sayğacları quraşdırılmışdır. Bütün ailələr fasiləsiz təbii qaz və elektrik enerjisi ilə təmin olunmuşdur. Ailələrin içməli su ilə təchizatı məsələsinə, mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına da xüsusi əhəmiyyət verilmiş, müharibə veteranı, şəhid və aztəminatlı ailələrin sosial müdafiəsinə diqqət xeyli artırılmış, onlar dövlət vəsaiti hesabına yeni mənzillərlə, minik avtomobilləri ilə təmin edilmişdir. Son 19 ildə əlil, məcburi köçkün, qaçqın və şəhid ailələri, təbii fəlakətdən zərərçəkənlər və digər bu kimi kateqoriyalardan olan şəxslər üçün 500-ə yaxın ev tikilərək istifadəyə verilmişdir.

Əhalini keyfiyyətli məhsullarla təmin etmək, əsas ərzaq məhsullarına olan tələbatının tam ödənilməsi üçün davamlı olaraq müvafiq tədbirlər həyata keçirilməkdədir. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 17 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" təsdiq edilmiş, uğurla icra olunmaqdadır. Qeyri-ərzaq məhsulları istehsalına da ciddi fikir verilir, sahibkarlara hər cür dövlət dəstəyi göstərilir. Hazırda muxtar respublika ailələri 107 növdə ərzaq, 227 növdə qeyri-ərzaq məhsulları olmaqla, ümumilikdə, 334 növdə məhsula olan tələbatını yerli istehsal hesabına ödəyir. Bu da ailələrin həm büdcəsinə xeyirdir, həm də standarta uyğun məhsullarla təmin olunması deməkdir.

19 ilə yaxın bir dövr iqtisadiyyatın dinamik inkişafı, sosialyönümlü tədbirlərin uğurla davam etdirilməsi ilə yanaşı, ailələrin sosial rifahının yaxşılaşmasına xidmət edən çoxsaylı tədbirlərin həyata keçirilməsi ilə əlamətdardır. Həyata keçirilən düşünülmüş ailə siyasəti hər bir ailənin yaşayış səviyyəsinin yüksəldilməsinə, xüsusən aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edir. Aztəminatlı ailələrə xüsusi diqqət və qayğı muxtar respublikada ailə siyasətinin ana xəttini təşkil edir. Onlara maddi və mənəvi dəstək olmaq dövlətin prioritetləri sırasındadır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ötən il aidiyyəti dövlət orqanlarına verdiyi tapşırığa əsasən, muxtar respublikada yaşayan 200-ə yaxın aztəminatlı ailəyə baş çəkilmişdir. Bu ailələrin kommunal problemləri ilə maraqlanılmış, həmin problemlərin aradan qaldırılması ilə bağlı işlər görülmüş, ailələrin üzvləri tibbi müayinədən keçirilmiş, onlara məişət əşyaları və ərzaq payı verilmişdir.

Muxtar respublikada ailələrin sosial problemlərinin həll olunması cəmiyyət tərəfindən rəğbətlə qarşılanır. Regionun iqtisadi inkişafı isə belə bir fikri söyləməyə əsas verir ki, dövlətimizin maliyyə imkanları artdıqca ailələrin sosial rifahı daha da yaxşılaşacaqdır. Ailələrin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə həyata keçirilən islahatların mühüm istiqamətlərindən biri də muxtar respublikada həyata keçirilən sosial yardım mexanizminin düzgün, qərəzsiz tətbiq olunmasıdır. Dövlət büdcəsi hesabına aztəminatlı ailələri əhatə edən bu mexanizmin fəaliyyəti daha da gücləndirilmiş, ildən-ilə müavinətlərin məbləği artırılmışdır.

*Naxçıvan Muxtar Respublikasında bir nəfərə düşən orta aylıq sosial müavinət (manatla)*




Son zamanlar bütün dünyada boşanmalar ən üst səviyyəyə qalxmış, ailə institutları məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdır. Bəzi Qərb dövlətləri hər bağlanmış 2 nikahdan birinin dağılması halı ilə barışmalı olmuşlar. Muxtar respublikada həyata keçirilən uğurlu ailə siyasətinin nəticəsidir ki, regionun dünyaya inteqrasiya etdiyi, azad internetin olduğu, informasiya-kommunikasiya texnologiyalarının geniş istifadə olunduğu bir vaxtda insanlar öz soy-köklərindən gələn dəyərlərindən, o cümlədən ailə dəyərlərindən uzaqlaşmamışdır. Bunun nəticəsində də bağlanan nikahlarla boşanmaların arasındakı say fərqi yaxınlaşmamış, stabil qalmaqdadır. Ailələri təkcə sosial baxımdan təmin etmək onun bütövlüyünü qorumaq demək deyildir, onlara tərəf getmək, dərd-sərlərini öyrənib müvafiq məsləhətlər vermək, maarifləndirmə işləri aparmaq da gərəkdir. Bu zaman ailələrin möhkəmliyinə, uzunömürlü olmasına nail olmaq olar. Düşünürəm ki, muxtar respublikamızda dövlətin ailə siyasətinin ən incə məqamı da elə budur.

*Rəsmi qeydə alınmış nikah və boşanmaların ümumi əmsalları*




Sağlam və möhkəm ailədə həmişə yeni doğulan uşaqların sayı üstünlük təşkil edir. Vətəndaş cəmiyyətinə xas olan mühüm bir xüsusiyyət ondan ibarətdir ki, ailələrin əksəriyyəti yalnız iqtisadi müstəqilliklərinin təmin olunduğu şəraitdə dünyaya övlad gətirirlər. Bu gün bu hal muxtar respublikamız üçün də xarakterikdir. İlbəil yüksələn doğum səviyyəsi daha da yaxşılaşmaqda olan əhali rifahına paralel olmaqla, onun məntiqi nəticəsi kimi çıxış edir. Amma çatdırmaq istədiyim bu deyil. Muxtar respublikada ana və uşaqların sağlamlıqlarının qorunması, müasir infrastrukturun qurulması, tibbi xidmətin keyfiyyətinin artırılması dolayısı ilə ailələrə xidmət edir. Bu gün ən müasir avadanlıqlarla təmin edilmiş səhiyyə müəssisələrində ailənin dayağı olan ana və uşaqlar müayinə olunur, tibbi cihazların vasitəsi ilə düzgün diaqnoz qoyulur, xəstəliklər dərhal aşkar olunub həllini tapır. Ailənin reproduktiv sağlamlığının qorunmasının əsas göstəricisi olan ana və uşaqların sağlamlıqlarına xüsusi diqqət göstərilməsinin nəticələri göz qabağındadır.

*Körpə ölümünün əmsalı (1 yaşa qədər uşaqlar)*




İqtisadiyyatın qloballaşdığı, ailə modellərinin dəyişdiyi, texnologiyaların sürətlə inkişaf etdiyi, urbanizasiyanın artdığı XXI əsrdə ailələrin və insanların uzunömürlü olması aktualdır. Sevindiricidir. Ona görə ki, muxtar respublikada 70 yaşı olan ailələr var. Bu, dövlətin ailələrə qayğısının, sağlam yaşlanmaya, sağlamlığa və firavan yaşayışa baxışının məntiqi nəticəsidir. Bununla yanaşı, son illər ərzində tibbi xidmətin müasir tələblər səviyyəsində qurulması üçün, ilk növbədə, bu sahədə infrastrukturun müasirləşdirilməsi istiqamətində tədbirlər diqqət mərkəzində saxlanılmışdır. Yeni tələblərə cavab verən səhiyyə müəssisələri tikilmiş, mövcud tibb ocaqlarının təmiri və yenidən qurulması işləri aparılmışdır. Bunlarla yanaşı, uzunömürlülüyün rəhni olan fəal həyat fəaliyyətini təmin edən qida və dövlətin həyata keçirdiyi ümumi siyasət nəticəsində cəmiyyətə ixrac olunan pozitiv enerji muxtar respublika insanının ömrünü bir qədər də uzatmışdır.

*Naxçıvan Muxtar Respublikası üzrə doğulanların gözlənilən ömür uzunluğu*




19 ilə yaxın bir dövrdə Naxçıvan Muxtar Respublikasının qazandığı nailiyyətlər bundan əvvəl bütün tarix boyu əldə edilən nəticələrdən daha üstündür. Düşünülmüş və məqsədyönlü siyasət uğurların davamlılığını təmin etməklə gələcəyə daha böyük inamla yanaşmağa stimul verir. Bu, regionumuzda ümummilli lider Heydər Əliyevin ideyalarının uğurla reallığa çevrilməsinin təsdiqidir. Naxçıvan Muxtar Respublikasında yaşayan ailələr əmindir ki, ulu öndər Heydər Əliyevin inkişaf strategiyasından qaynaqlanan uzaqgörən, sistemli və qətiyyətli sosial-iqtisadi inkişaf siyasəti bundan sonra da davam etməklə qarşıda duran vəzifələrin uğurla yerinə yetirilməsini, regionun inkişafının daha da sürətlənməsini və nəticədə, ailələrin sosial rifahının davamlı olaraq yaxşılaşmasını təmin edəcəkdir.

**Sahir RÜSTƏMOV**
*Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri*

*Elə insanlar var ki, onlar həyatda seçdiyi sənətə o qədər vurğun olurlar ki, onların övladları da bunu görüb o adamların davamçısı olurlar. Nəticədə, bir sənətin, peşənin nəsildən-nəslə ötürülməsi ənənəsi yaranır. Naxçıvan teatrında da bu gün bu ənənə yaşamaqdadır. Bu yazıda Xalq artisti Sofya Hüseynovadan danışmaq istəyirəm.*

Nəsillərdən nəsillərə

# Teatra bağlı talelər...

Naxçıvan teatrının canlı korifeyi, Xalq artisti Sofya Hüseynova 1926-cı ildə Bakı şəhərində anadan olub. Sofya xanım anası, Azərbaycan Respublikasının əməkdar artisti Xədicə Qazıyevanın sənət yolunu davam etdirib. Xədicə xanım 1920-ci illərdə Bakıda teatrda fəaliyyət göstərib. Elə həmin illərdə Naxçıvana ezam olunan hərbçi həyat yoldaşı ilə muxtar respublikaya gələndə teatrda onun kimi qadın aktrisalara çox ehtiyac vardı. Xədicə Qazıyevanın peşəkarlığı ilk illərdən teatrın truppasının işini xeyli asanlaşdırıb. Çünki uzun illər Bakıdakı teatrda olduğu kimi, Naxçıvan teatrında da qadın rolunu ya gənc kişilər, ya da qeyri millətlərin nümayəndəsi olan, Azərbaycan dilində danışmaqda çətinlik çəkən qadınlar oynayırdılar. 1923-cü ildə Naxçıvan teatrına dövlət teatrı statusu verilib. Bundan sonra dövlət səviyyəsində teatra qayğı göstərilməyə başlanıb. Muxtariyyət illərində artıq Bakıdan qadın aktrisalar teatra dəvət alırdılar. Amma onlar da bir neçə tamaşa oynayandan sonra yenidən geri qayıdırdılar. Nəticədə isə peşəkar qadın aktrisalar sarıdan teatrda ciddi boşluq hiss olunurdu. Həmin vaxtlar Xədicə xanımın Naxçıvana gəlişi teatr ictimaiyyətini sevindirdi. Naxçıvan teatrında bu gün də davam edən qadın aktrisaların peşəkarlığının təməli məhz həmin illərdə qoyulub. İstedadı ilə seçilən aktrisanın ilk rolu "Qaçaq Kərəm" pyesində Sirab obrazı olub. Sonra o, Cəfər Cabbarlının "Sevil" əsərində Edilya, Hüseyn Cavidin "Şeyx Sənan" faciəsində Xumarı yaradıb. Maraqlı burasıdır ki, onun oynadığı rolların sayı 200-ə çatır. Bu isə Naxçıvan teatrında çox az sənətkara qismət olan bir taledir. Elə Sofya xanım da anasının ciddi təkidi ilə 1942-ci ildə peşəkar aktrisa ömrünü Naxçıvan teatrına bağlayır. Amma Sofya xanım deyir ki, anam məni hələ 3 yaşım olanda teatra aparıb. Orada C.Cabbarlının "Sevil" tamaşasında balaca Gündüzün sözsüz səhnələrini oynamışam. Deməli, 3 yaşımdan səhnədəyəm.

İlk peşəkar rolu isə Səməd Vurğunun "Vaqif" dramında gürcü qızı Tamara obrazı olub. Sonradan, Böyük Vətən müharibəsi illərində ailə vəziyyəti ilə bağlı Bakıya getməyə məcbur olub. Amma 1955-ci ilin yaradıcılıq mövsümündə naxçıvanlı tamaşaçılar onu yenidən doğma səhnədə İslam Səfərlinin "Göz həkimi" pyesində Nərminə rolunda görürlər. Öz zahiri görünüşü və Xədicə xanımdan heç də geri qalmayan istedadı onu az zamanda naxçıvanlı sənətsevərlərin sevimlisinə cevirir. Aydın, səlis diksiyası, peşəkar səhnə davranışı, ən əsası, sərbəstliyi sonradan Sofya xanımın obrazlar silsiləsinin yaranmasına gətirib çıxarır. Dünya səviyyəli müasir və klassik dramaturqların əsərlərində yaratdığı maraqlı rollar həm də mürəkkəbliyi ilə seçilirdi. Amma təcrübəli aktrisa üçün bu, artıq adi hal idi. Ona görə də Baxşı Qələndərli, Miribrahim Həmzəyev, Vəli Babayev kimi rejissorlar məmnuniyyətlə öz tamaşalarında ona rollar təklif edirdilər. A.N.Ostrovskinin "Günahsız müqəssirlər"ində Kruçinina, "Cehizsiz qız"ında Larisa, gürcü A.Saqarellinin "Xanuma"sında Xanuma, Lope de Veqanın "Bostan iti"ndə Diana, S.S.Axundovun "Eşq və intiqam"ında Zəhra, Ü.Hacıbəyovun "O olmasın, bu olsun" əsərində Gülnaz, C.Cabbarlının "Sevil"ində Edilya, K.Ağayevanın "Məhsəti"sində Tərgül və sair rolların hamısı uğurla tamaşaçılara təqdim edilib. Sofya xanımın üstünlüyü rolları özününküləşdirmək bacarığı idi. Hər bir obrazın sanki daxili aləmini açır, onu olduğu kimi hissləri, düşüncələri ilə tamaşaçıya təqdim edirdi. Bu ustalığına görə 1974-cü ildə Azərbaycan Respublikasının əməkdar, 1982-ci ildə isə xalq artisti fəxri adlarına layıq görülüb. Prezident təqaüdçüsü olan Sofya Hüseynova "Şöhrət" ordeninə də layiq görülüb.

*Söhbətimizin əvvəlində bir nəsildə davam edən sənət ənənəsindən nahaq söhbət açmadıq. Ənənə bu ailədə də davam edir. Əgər Xədicə xanım səhnəmizə Sofya Hüseynovanı veribsə, Sofya xanım Azərbaycan teatr sənətinə Rafael Dadaşov və Rövşən Hüseynov kimi iki Xalq artisti bəxş edib.*

**Səməd CANBAXŞIYEV**

# Məktəblilərin istedad və bacarığının üzə çıxarılması üçün hərtərəfli şərait yaradılıb

***Gənc nəslin inkişaf etdirilməsində, onların bacarıq və istedadlarının aşkara çıxarılmasında məktəbdənkənar təhsil müəssisələrinin böyük rolu vardır. Məktəbdənkənar təhsil uşaq, yeniyetmə və gənclərin maraq, meyil və bacarıqlarının, intellektual səviyyələrinin, yaradıcılıq qabiliyyətlərinin inkişafı, fiziki cəhətdən sağlam böyümələri üçün əlverişli şərait yaradır, onların asudə vaxtlarının səmərəli təşkilini təmin edir. Belə məktəbdənkənar müəssisələr sırasında texniki yaradıcılıq mərkəzlərinin də öz yeri var. Naxçıvan Muxtar Respublikası Texniki Yaradıcılıq Mərkəzi də belə ünvanlardan biridir.***





Mərkəzdə təqvim ili ərzində dərnək üzvləri ilə müxtəlif mədəni-kütləvi tədbirlər, elmi-texniki yaradıcılıq müsabiqələri, sərgilər, texniki idman yarışları, ekskursiyalar təşkil olunur, onların respublika səviyyəli tədbirlərdə iştirakları diqqət mərkəzində saxlanılır. Bu günlərdə məktəbdənkənar müəssisənin fəaliyyəti ilə daha yaxından tanış olmaq üçün həmin ünvanda olduq. Mərkəzin direktoru Sevinc Mirzəyeva ilə söhbətimizdə bildirdi ki, mərkəz 1954-cü ildən Gənc Texniklər Stansiyası adı ilə fəaliyyətə başlayıb. 1991-ci ildən Naxçıvan Muxtar Respublikası Texniki Yaradıcılıq Mərkəzi kimi fəaliyyətini davam etdirir. Bu gün dövlətimizin təhsilə göstərdiyi yüksək diqqət və qayğıdan bu mərkəzə də pay düşdüyünü vurğulayan müsahibim qeyd etdi ki, mərkəzin fəaliyyət göstərdiyi bina əsaslı təmir olunaraq 2007-ci ildə müəllim və şagirdlərin istifadəsinə verilib. Mərkəz müasirtipli avadanlıqlarla, materiallarla təchiz olunub. 2014-cü ildə mərkəzin binası yenidən əsaslı şəkildə təmir edilib. Bu qayğı, yaradılan şərait dərnəklərin fəaliyyətini daha da yaxşılaşdırıb, dərnək rəhbərlərini öz işlərinə daha məsuliyyətlə yanaşmağa sövq edib.

Öyrəndik ki, mərkəzin pedaqoji kollektivi şəhər ümumtəhsil məktəbləri şagirdlərinin texniki dərnəklərə cəlbini yaxşılaşdırmaq, onların yaradıcılıqlarını daha da inkişaf etdirmək, boş vaxtlarını səmərəli təşkil etmək məqsədilə tədbirlər həyata keçirir. Mərkəzə 13 adda 102 qrupa 1020 nəfər məktəbli cəlb edilib. Bu şagirdlərlə 32 nəfər ali təhsilli müəllim məşğul olur.

Şagirdlər könüllü olaraq marağına, istəyinə, bacarığına görə dərnəklərə qəbul edilirlər. "İnformatika", "Kağız əl işləri", "Əyləncəli fizika", "Bədii tikmə", "Memarlıq", "Dizayn", "Bacarıqlı əllər", "Texniki ekologiya", "Texniki rəsmxətt", "Təyyarə-raket modelçiliyi", "İbtidai texniki modelləşdirmə", "Təsviri estetika" dərnəklərində dərnək üzvləri müxtəlif modellər, əl işləri hazırlayırlar. Dərnəklərin əksəriyyəti Naxçıvan şəhərindəki ümumtəhsil məktəblərində fəaliyyət göstərir. Həmin dərnəklərə mərkəzin şöbə müdirləri nəzarət edir, məşğələlərin keçirilməsi yoxlanılır və ayrılmış məlumat kitabında mütəmadi olaraq qeydlər aparılır. Mərkəzdə tarixi və əlamətdar günlərdə tədbirlər keçirilməsinə böyük önəm verilir.

Müxtəlif tədbirlərdə fəal iştirak edən dərnək üzvlərinin əl işləri diplom, fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıb.

Sevinc Mirzəyeva onu da vurğuladı ki, məktəblilərin yay tətili günlərini səmərəli keçirmək üçün mərkəzdə tədbirlər planı hazırlanıb. Plana əsasən, uşaqlar ekskursiyalara aparılır, maraqlı viktorinalar keçirilir. Naxçıvan şəhərində yerləşən Hüseyn Cavid məqbərəsi, Xan sarayı, Möminə xatın türbəsi, Naxçıvanqala, Nuh Peyğəmbərin məzarüstü türbəsi və bir sıra muzeylər şagirdlərin mütəmadi olaraq aparıldığı yerlərdir.

*Müsahibim sonda bildirdi ki, dövlətimizin gənc nəslə göstərdiyi diqqət və qayğıya cavab olaraq öz işimizdə daha da dönüş yaratmaq üçün bundan sonra da səy və bacarığımızı əsirgəməyəcək, müstəqil Azərbaycanımızın gələcək qurucuları olan gənc nəslin istedad və bacarığının üzə çıxarılmasına çalışacağıq.*

✍ **Sona MİRZƏYEVA**

# Yaxın vaxtlarda muxtar respublikada avtomatlaşdırılmış pensiya təyinatı sistemi işə düşəcək

***Ölkəmizdə 2006-cı ildən tətbiq olunan sığorta-pensiya modeli müasir dünyada sığorta-pensiya sistemləri üzrə ən mühüm elementləri özündə birləşdirir və bu sahədəki islahatlar nüfuzlu beynəlxalq təşkilatlar, maliyyə institutları tərəfindən çox yüksək qiymətləndirilir.***

Fərdi uçot sisteminin əsas məqsədlərindən biri sığortaolunanların gələcəkdə alacaqları pensiyaların hansı məbləğdə olacağını qabaqcadan müəyyənləşdirmələrinə şərait yaratmaqdır. Fərdi uçotla bağlı yaradılmış bazadan istifadə etməklə sosial sığorta iştirakçıları haqqında dəqiq məlumat almaq mümkündür. Bu da, öz növbəsində, sığortaolunanın pensiyaya çıxacağı haqqında dəqiq proqnozların verilməsinə, sığortaolunanlar və sığortaedənlər tərəfindən ödənilməli və ödənilmiş olan məcburi dövlət sosial sığorta haqlarına daha asan və çox vaxt sərf etmədən nəzarət etməyə imkan verir.

Hazırda muxtar respublika üzrə 149183 sığortaolunan sosial sığorta şəhadətnaməsi ilə təmin olunmuşdur və bu da ötən ilin müvafiq dövründən 8,9 faiz və yaxud 12 min 282 ədəd çoxdur.

2014-cü ilin yanvar ayının 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2013-cü ilin yekunları və qarşıda duran vəzifələrə dair keçirilmiş müşavirədə Dövlət Sosial Müdafiə Fonduna sığortaolunanların sığorta stajlarının fərdi şəxsi hesablarına işlənilməsinin təmin edilməsi, məcburi dövlət sosial sığorta haqlarından yayınma hallarının aradan qaldırılması, sığorta haqlarının "onlayn ödəmə" sistemi vasitəsilə ödənilməsi sahəsində təbliğat və maarifləndirmə işlərini gücləndirməsi tapşırılmışdır. Bu tapşırığa əsasən, Dövlət Sosial Müdafiə Fondu bu sahədə işlərini sürətləndirmişdir. Belə ki, 2013-cü il yanvarın birindən 2014-cü il yanvarın birinədək olan bəyannamələr Dövlət Sosial Müdafiə Fondunun yerli orqanlarının Fərdi uçotun təşkili sektorları tərəfindən tam şəkildə qəbul olunmuşdur. Hal-hazırda fərdi hesablara işlənilməsi prosesi gedir. Bəyannamələrdə sığortaolunanların aldıqları aylar üzrə əməkhaqları, ödənilən sosial sığorta haqları, sosial sığorta stajı öz əksini tapır. Sığortaolunanların fərdi şəxsi hesablarında olan məcburi dövlət sosial sığorta haqları hər ilin əvvəlində keçən ilin inflyasiya faizinə əsasən indeksləşdirilir. Belə ki, 2006-cı ilin inflyasiya faizi 8,3 faiz, 2007-ci ilin inflyasiya faizi 16,7 faiz, 2008-ci ilin inflyasiya faizi 20,8 faiz, 2009-cu ilin inflyasiya faizi 1,5 faiz, 2010-cu ilin inflyasiya faizi 5,7 faiz, 2011-ci ilin inflyasiya faizi 7,9 faiz, 2012-ci ilin inflyasiya faizi 1,1 faiz, 2013-cü ilin inflyasiya faizi 2,4 faiz olmuşdur. Bu onu göstərir ki, sığortaolunanların ödədikləri sosial sığorta haqları fərdi şəxsi hesablarına işləndikdən sonra hər il indeksləşmə faizinə uyğun olaraq artırılır. Sığortaolunanın 2006-cı ildə pensiya kapitalı 100 manat idisə, artıq indeksləşmə faizilərinə uyğun olaraq artaraq 182,97 manat olmuşdur.

Avtomatlaşdırılmış pensiya təyinatına keçidlə əlaqədar Dövlət Sosial Müdafiə Fondu tərəfindən işləyən vətəndaşların 2006-cı il tarixə qədər olan iş stajlarının yığılması prosesi də davam etdirilir. Yaxın vaxtlarda muxtar respublikada avtomatlaşdırılmış pensiya təyinatı sistemi işə düşəcəkdir. Bununla da, əmək pensiyası hüququ yaranmış vətəndaş bu sistemdən rahat istifadə edə biləcək, nəticədə isə vətəndaş çoxlu sayda sənəd toplamaqdan və vaxt itkisindən azad olacaq.

Pensiya sistemində köklü islahatlar aparmış əksər inkişaf etmiş ölkələrdə belə, əvvəlki sistemin iştirakçılarının yeni şəraitə inteqrasiyasının hələ də problem olaraq qaldığı bir şəraitdə ölkəmizdə bu prosesin tam gerçəkləşdirilməsi qeyd olunan sahədə əsl nümunədir.

**İsmayıl HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun əməkdaşı***

# "Araz-Naxçıvan" meydana çıxır




Futbol üzrə Topaz Premyer-Liqasında iştirak etmək hüququ qazanan "Araz-Naxçıvan" futbol komandası sabah çempionatda ilk görüşünü keçirəcək. Naxçıvan Muxtar Respublika Stadionunda keçiriləcək matçda komandamızın rəqibi "Neftçi" futbol komandasıdır. Ötən mövsüm ölkə kubokunun qalibi olan Bakı klubu ilə oyuna muxtar respublika təmsilçisi ciddi hazırlaşır. Əsgər Abdullayevin yetirmələri gündə bir dəfə olmaqla mərkəzi stadionda hazırlıqlarını davam etdirirlər. Bu gün komandamız son məşqini keçirəcək və oyunun başlama saatını gözləyəcək. "Neftçi"nin günün ikinci yarısından sonra Naxçıvana gələcəyi gözlənilir.

Avropa Liqasında artıq pley-off mərhələsinə yüksələn "Neftçi" ilə matç komandamızın Premyer-Liqada debüt oyunu olacaq. Artıq oyunu idarə edəcək hakimlər briqadası da məlumdur. Muxtar respublika stadionunda keçiriləcək qarşılaşmaya baş hakim kimi meydana Fariz Yusifov çıxacaq. Azər Əsgərov və Vaqif Musayev bu matçda yardımçı hakim funksiyasını yerinə yetirəcəklər. Oyunun dördüncü hakimi isə Ramiz Məmmədovdur.

Qeyd edək ki, "Araz-Naxçıvan"-"Neftçi" matçı avqustun 10-da Naxçıvan Muxtar Respublika Stadionunda oynanılacaq. Oyunun başlama saatı $18^{00}$-dir.

✍ **Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 677